

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 142 (23.304)

*1 avqust 2019-cu il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

İyulun 31-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı müşavirə keçirilib.

Prezident İlham Əliyev bu ilin əvvəlində qarşıya qoyulan vəzifələrin icra edildiyini, ölkəmizin inamla inkişaf etdiyini, böyük infrastruktur layihələrinin həyata keçirildiyini, ümumi iqtisadi vəziyyətin çox müsbət olduğunu bildirib. Dövlətimizin başçısı bu ilin altı ayında iqtisadiyyatın, qeyri-neft sektorunun, qeyri-neft sənayesinin və kənd təsərrüfatının artdığını vurğulayıb.

Qoyulan investisiyaların, aparılan islahatların, verilən subsidiyaların, kənd təsərrüfatına elmi yanaşmanın öz nəticəsini verdiyini qeyd edən dövlətimizin başçısı bu sahənin gələcəkdə də dayanaqlı inkişaf edəcəyinə əminliyini bildirib. Altı ayda ölkə iqtisadiyyatına 6 milyard dollardan çox sərmayə qoyulduğunu, bunun böyük hissəsinin qeyri-neft sektorunun payına düşdüyünü deyən Prezident İlham Əliyev ilin əvvəlindən böyük sosial paketin təsdiqləndiyini və əhalinin rifahının, yaşayış səviyyəsinin daim diqqət mərkəzində saxlanıldığını bildirib.

Bu ilin əvvəlində regionların sosial-iqtisadi inkişafına həsr olunan dördüncü Dövlət Proqramının qəbul olunduğunu vurğulayan dövlətimizin başçısı həm elektrik enerjisi, həm qazlaşdırma, həm də içməli su sahələrində gözəl nəticələrin əldə edildiyini diqqətə çatdırıb. Prezident İlham Əliyev yol infrastrukturu ilə bağlı görülən işlərdən danışıb, büdcə daxilolmalarının, eyni zamanda valyuta ehtiyatlarının artdığını, manatın məzənnəsinin sabit qaldığını vurğulayıb.



## "Azərbaycan su təsərrüfatında irriqasiya avadanlıqları" layihəsinin həyata keçirilməsi üçün müqavilə imzalanıb



Azərbaycan Respublikasının bugünkü dayanıqlı iqtisadiyyatı və inkişafı beynəlxalq institutların ölkəmizə marağını daha da artırıb. Digər inkişaf etmiş ölkələr kimi, Çin Xalq Respublikası ilə Azərbaycan Respublikasının da qarşılıqlı, faydalı əməkdaşlıq və dostluq münasibətləri formalaşıb. Nəticədə, 2016-cı ildə iki ölkə arasında texniki-iqtisadi əməkdaşlıq barədə razılıq əldə edilib. Bu razılaşmanın bir bəndində Çin Xalq Respublikası öz üzərinə belə bir öhdəlik götürüb ki, Azərbaycan Respublikasına əvəzsiz olaraq su təsərrüfatı üçün avadanlıq və texnikalar göndərsin. Bununla əlaqədar Çin Xalq Respublikasının Kommersiya Nazirliyi Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi ilə danışıqlar aparıb və bu müqavilə razılaşdırılıb. Həmin müqavilənin Naxçıvan Muxtar Respublikasında imzalanmasının təşəbbüskarı Çin Xalq Respublikasının ölkəmizdəki keçmiş səfiri olub.

Müqaviləyə əsasən avadanlıqların daşınması, onların sığortalanması, qurašdırılması və zəmanət müddətində texniki xidmətin göstərilməsi xərcləri Çin dövləti ödəyəcəkdir. Bu işlərlə Çinin Çindau şəhərində fəaliyyət göstərən "AUCMA" import-eksport şirkəti məşğul olacaqdır. Avadanlıq və texnikalar Naxçıvan Muxtar Respublikası gömrüyündə Azərbaycan tərəfinə təhvil veriləcəkdir.

Dəyəri 22 milyon 580 min Çin yuanı olan müqavilədə nəzərdə tutulub ki, Çin Xalq Respublikası tərəfindən Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinə 30 müxtəlif təyinatlı texnika, 13 dəst plastik qaynaq aparatı, 5 təkərli metal qaynaq aparatı, 2 hava kompressoru, 3 dəst yeraltı su detektoru, 6 açıq və qapalı sistemlərdə suyun sürətini ölçən cihaz və 8 sızma detektoru veriləcəkdir.

Göndəriləcək bütün mallar Çin Xalq Respublikasının texniki şərtləri və standartlarına uyğun istahsal olunub və həmin dövlətin müvafiq orqanlarının keyfiyyət sertifikatlarına malikdir.

Bu texnikaların quraşdırılması və iş prinsipinin öyrədilməsi üçün texniki personalın göndərilməsi və bir ay müddətində bu işlərin həyata keçirilməsi də nəzərdə tutulub.

Müqaviləyə görə, Azərbaycan tərəfinin də bir neçə öhdəliyi vardır. Bunlardan biri avadanlıqların saxlanılması üçün qapalı dayanacaqların tikilməsi olub ki, o da komitə tərəfindən həyata keçirilib.

Müqavilənin imzalanması mərasimində Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini Elşad Əliyev çıxış edib. Bildirib ki, təqdimatına toplaşdığınız bu layihə artıq Çin Hökumətinin Naxçıvan Muxtar Respublikasında həyata keçirdiyi çoxsaylı irihəcmli layihələrdən kənd təsərrüfatı sahəsi üzrə olan ikincisidir. Birinci layihə 2017-ci ilin fevral ayında "Bərəkət Toxumçuluq" təsərrüfatının maddi-texniki bazasının yaxşılaşdırılması məqsədilə həyata keçirilib.

Elşad Əliyev deyib ki, həmin layihəyə əsasən toxumçuluq təsərrüfatına 33 adda 80 ədəd kənd təsərrüfatı texnikası və avadanlıqları verilib. Haliyədə təsərrüfatın 2000 hektar torpaq sahəsi vardır ki, bunun da 1023 hektarında qapalı suvarma şəbəkəsi qurulub və bu işlər davam etdirilir. Adıçəkilən layihə artıq öz bəhrəsini verməkdədir.

"Üç ildir ki, Çin Hökuməti tərəfindən əvəzsiz olaraq verilməyə kənd təsərrüfatı texnikaları ilə həmin təsərrüfatda şum, səpin və biçin işləri həyata keçirilir", – deyən Baş nazirin birinci müavini bildirib ki, cari ildə verilmiş texnikalarla 1037 hektar sahədə əkin və biçin işləri aparılıb, 2500 ton taxıl məhsulu istehsal olunub. Bu da muxtar respublikada dənli bitkilərin toxumuna olan tələbatın ödənilməsində mühüm rol oynayıb. Gələcəkdə həmin təsərrüfatda verilmiş texnikalarla 2000 hektar sahədə əkin işlərinin aparılması və 6000 ton məhsul istehsalı gözlənilir.

Diqqətə çatdırılıb ki, meliorasiya sahəsində həyata keçirilən ikinci layihəyə əsasən veriləcək 17 adda 67 ədəd texnika da muxtar respublikanın kənd təsərrüfatının aparıcı sahələrindən olan meliorasiya təsərrüfatının daha da yaxşılaşmasına və inkişafına öz müsbət təsirini göstərəcəkdir.

Elşad Əliyev muxtar respublikanın meliorasiya sahəsində həyata keçirilən bu layihəyə görə muxtar respublikanın rəhbəri və hökuməti adından Çin Xalq Respublikası Hökumətinə dərin hörmət və ehtiramını ifadə edib.

Sonra Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin sədri Əsgər Əsgərov və Çin Xalq Respublikasının Azərbaycandakı səfirinin ticari-iqtisadi məsələlər üzrə müşaviri Van Çunqan müqaviləni imzalayıblar.

✍ **Muxtar MƏMMƏDOV**

*Dünən Ordubad Rayon İcra Hakimiyyətində Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi ilə birgə rayonda sığorta işinin təşkili və qarşıda duran vəzifələr barədə tədbir keçirilib.*

## Sığorta fəaliyyətinin təşkili ilə bağlı tədbir keçirilib



Tədbiri Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov açaraq rayonda sığorta sahəsində görülmüş işlərdən danışıb. Sonra Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin baş direktoru Hikmət Əsgərov çıxış edərək sığorta fəaliyyətinin muxtar respublikamızın müasir iqtisadi və sosial inkişafının tərkib hissəsi olduğunu bildirib.

Baş direktor vurğulayıb ki, muxtar respublikada həyata keçirilmiş tədbirlər nəticəsində sığorta işinin həcmi əhəmiyyətli dərəcədə artıb, baş vermiş sığorta hadisələri zamanı insanlara dəymiş maddi zərərlərin bərpası təmin edilib.

Sığorta fəaliyyətinin daha da genişləndirilməsinin vacib olduğunu qeyd edən baş direktor bildirib ki, ötən müddətdə Ordubad rayonunda da bu istiqamətdə işlər görülüb. Belə ki, cari ilin ilk yarısında Ordubad rayonu üzrə 4828 sığorta müqaviləsi bağlanılıb, onlardan 1149-u avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası, 1793-ü daşınmaz əmlakın icbari sığortası, 1886-sı isə könüllü sığorta müqavilələri olub. O, Ordubad rayonunda müxtəlif sığorta növləri üzrə görülmüş işlərdən və qarşıda duran vəzifələrdən danışaraq vurğulayıb ki, ölkəmizdə qüvvədə olan qanuna əsasən icbari qaydada sığortanın şamil olunduğu bütün obyektlərin sığortasının təmin edilməsi üçün maarifləndirmə işi genişləndirilməlidir.

Diqqətə çatdırılıb ki, son dövrlərdə Ordubad rayonunda sığorta sahəsində görülmüş işlərlə bərabər icbari qaydada sığorta olunmalı olan vətəndaşlara və sahibkarlara məxsus daşınmaz əmlakın icbari sığortası, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə hələ də sığorta olunmayan hüquqi və fiziki şəxslər vardır. Buna görə də Ordubad rayonunda sığorta fəaliyyətinin daha da genişləndirilməsi və bu sahədə maarifləndirmə işlərinə diqqətin artırılması vacib vəzifə kimi qarşıda durur.

Hikmət Əsgərov bildirib ki, kənd təsərrüfatında aparılan sığorta işi də digər könüllü sığortalar kimi, son nəticədə, insanların rifahının yüksəldilməsinə xidmət edir. Buna görə də Ordubad rayonunda əkin sahələrinin, meyvə bağlarının, heyvanların sığortalanması məqsədilə fermer, torpaq mülkiyyətçiləri və ailə təsərrüfatları sahibləri arasında maarifləndirici işlər genişləndirilməlidir. Çıxışda ayrı-ayrı icbari və könüllü sığorta növləri üzrə icra vəziyyəti təhlil olunaraq hər bir sığorta növünün əhəmiyyəti diqqətə çatdırılıb.

Sonda çıxışlar dinlənilib.

✍ **Əli CABBAROV**

## Tikinti-quraşdırma işləri geniş vüsət alıb

*Bu ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin xətti ilə 64 milyon 357 min manatlıq inşaat işləri yerinə yetirilib. Bunun 60 milyon 751 min manatını və ya 94,4 faizini tikinti-quraşdırma işləri təşkil edib.*

Təhsil sahəsində həyata keçirilmiş quruculuq tədbirlərinə uyğun olaraq cari ilin ilk yarısında Şərur rayonunun Kərimbəyli kəndində 270, Ordubad rayonunun Dəstə kəndində 900 şagird yerlik tam orta məktəb binalarının tikintisi, Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsi üçün tədris binasının yenidən qurulması başa çatdırılaraq istifadəyə verilib. Hazırda Naxçıvan şəhərində Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbi, 1148 şagird yerlik 5 nömrəli tam orta məktəb, Şərur, Babək və Şahbuz rayonlarının bəzi kəndlərində tam orta məktəb binalarının və Ordubad rayonunun Vənənd kəndində musiqi məktəbinin, Şərur rayonunun Muğanlı və Muğancıq Mehrab kəndlərində, Ordubad rayonunun Vənənd kəndində tam orta məktəb binalarının tikintisi və yenidən qurulması işləri davam etdirilir. Bundan əlavə, ötən dövrdə Naxçıvan şəhərinin Əziz Əliyev küçəsində 2 nömrəli körpələr evi-uşaq bağçası üçün müasir bina tikilərək istifadəyə verilib, Şərur rayonunun Mərkəzi Xəstəxanasının əsaslı təmiri və rayon Uşaq Xəstəxanasının yenidən qurulması, Şərur rayonunun Kərimbəyli və Ordubad rayonunun Dəstə kəndlərində həkim ambulatoriyası binalarının tikintisi başa çatdırılıb.

Cari ilin birinci yarısında mədəniyyət sahəsində də quruculuq işləri uğurla davam etdirilib, Şahbuz Rayon Mədəniyyət Sarayının tikintisi başa çatdırılaraq istifadəyə verilib, Naxçıvan şəhərində və Ordubad rayonunun Dırnıs kəndində məscidin, Şərur Rayon Mədəniyyət Sarayının tikintisi, Naxçıvan şəhərində Cəmşid Naxçıvanskinin ev-muzeyinin, Şərur şəhərində Təqaüdçülər Klubunun yenidən qurulması, Kəngərli rayonunun Şahtaxtı kəndində hamam binasının bərpası davam etdirilir.

İlin ötən dövründə Şərur rayonunun Kərimbəyli, Ordubad rayonunun Dəstə kəndlərində kənd mərkəzləri istifadəyə verilib, Şərur rayonunun Qışlaqabbas və Xələc kəndlərində kənd mərkəzlərinin yenidən qurulması, Alışar, Yeni Havuş, Muğancıq Mehrab, Muğanlı, Məmmədsabir, Babək rayonunun Kültəpə, Gülşənabad, Ordubad rayonunun Vənənd, Şahbuz rayonunun Türkeş kəndlərində isə kənd mərkəzlərinin tikintisi davam etdirilir. Bəhs edilən dövrdə Şərur rayonunun Kərimbəyli, Ordubad rayonunun Dəstə kəndlərində müasir xidmət mərkəzləri istifadəyə verilib. Şərur, Şahbuz rayonlarının bir sıra kəndlərində isə xidmət mərkəzlərinin tikintisi gedir.

**Xəbərlər şöbəsi**

İnkişaf edən bölgələrimiz

# Sürətli sosial-iqtisadi tərəqqi ünvanlarından biri: ŞƏRUR

*Bu qədim yurd yerindən Ulu Tanrı öz səxavətini əsirgəməyib. Torpaqlarının bərəkətinə söz ola bilməz. Qədim tarixi abidələri min illərdən bu günə boylanan körpüdür. İnsanları yurd, torpaq təəssübkeşidirlər. Elm, mədəniyyət xadimlərinin səsi-sorağı dünyanın müxtəlif ölkələrindən gəlir. Şərur muxtar respublikamızın böyük rayonlarından biridir. Bu yaxınlarda yolumuzu həmin rayondan saldıq: 2019-cu ilin ilk yarım ilində bölgədə həyata keçirilən genişmiqyaslı quruculuq tədbirlərinin, reallaşdırılan iqtisadi layihələrin rayona gətirdiyi yenilikləri görmək, zəhmətkeş şərurluların günbəgün yaxşılaşan həyat səviyyəsi ilə yaxından tanış olmaq üçün. Naxçıvan-Sədərək magistralı boyu bu yolların, muxtar respublikamızın bir neçə il əvvəlki görkəmini xatırlayırdım. Düşünürdüm ki, qısa zaman kəsiyində gör necə böyük işlər görülüb.*




### Yol düzgün seçiləndə və ya Şərurun quruculuq xəritəsində 2019-cu ilin ərməğanları

Bu qənaət muxtar respublikamızda artıq aforizmə çevrilib. Və qədim diyarımızın hansı ünvanına – istər rayon mərkəzlərinə, istərsə də ən ucqar dağ və sərhəd yaşayış məntəqələrinə qədəm qoysaq, həmin aforizmin bəhrələrini görərik. Götürək Naxçıvan-Sədərək magistral yolunu. Dünya standartlarına cavab verən bu yol böyük təşkilatçılıq, sabaha cavabdehlik hissinin ifadəsidir. Qısa müddətdə başa çatdırılan böyük layihə həm də "Yol mədəniyyətdən başlanır" deyimini yada salır. Bunu arxada qoyduğumuz Kəngərli rayonunun mərkəzi Qıvraq qəsəbəsindən keçərkən bir daha təsdiqləyirik. Şərura qədər yolun sonrakı hissələrində də gördüklərimiz qəlbimizi dağa döndərir. Muxtar respublikanın sosial-iqtisadi inkişafının yeni mərhələyə qədəm qoyduğunu isə Şərur şəhərində bir daha görürük.

Hazırda rayon mərkəzində və kənd yaşayış məntəqələrində 50-yə yaxın ünvanda tikinti-quruculuq işləri aparılır. Məlumat üçün bildirək ki, 2019-cu ilin yanvar-iyun aylarında iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 38387,3 min manat və ya 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,2 faiz çox vəsait yönəldilib. Tikinti-quraşdırma işlərinə qoyulan vəsaitin dəyəri 2,2 faiz artaraq 36702 min manat təşkil edib.

İlin əvvəlində Şərur şəhərində uşaq xəstəxanasının, Kərimbəyli kəndində 270 şagird yerlik tam orta məktəb binasının, kənd və xidmət mərkəzlərinin və həkim ambulatoriyasının tikintisi və yenidən qurulması, mərkəzi xəstəxananın əsaslı təmiri başa çatdırılaraq istifadəyə verilib.

Hazırda Şərur şəhərində Mədəniyyət Sarayının, "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinin Şərur rayon filialının inzibati binasının və mərasim evinin, Qarxun kəndi ərazisində isə Daxili Qoşunlar üçün nəzərdə tutulmuş infrastruktur binalarının tikintisi, təqaüdçülər klubu ilə mərkəzi univermağın isə əsaslı təmiri və yenidən qurulması, həmçinin rayon mərkəzində altımərtəbəli, 40 mənzilli müasir yaşayış binasının tikintisi davam etdirilir.

Eyni zamanda Naxçıvan-Sədərək magistralından Şərur şəhərinə qədər olan, eləcə də şəhərdəki Heydər Əliyev prospektini və altı küçəni əhatə edən 11 kilometrlik avtomobil yolunun yenidən qurulması davam etdirilir. Muğanlı, Muğancıq Mehrab, Xələc və Yeni Havuş-Xətai kəndlərində kompleks-quruculuq işləri, Məmmədsabir kəndində kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası, Alışar və Qışlaqabbas kəndlərində kənd və xidmət mərkəzləri, Maxta kəndində isə Çernobıl əlili üçün yaşayış binası inşa olunur.

Bunlarla bərabər, Şərur şəhərinin və ətraf kəndlərinin içməli su təchizatının yenidən qurulması layihəsinin davamı olaraq Zeyvə və Düdəngə kəndlərində içməli su sistemlərinin çəkilişi davam etdirilir. Dizə kəndində isə gücü saniyədə 271 litr olan sutəmizləyici qurğunun və 27 min kubmetr həcmində üç su anbarının tikintisinə başlanılıb.

Həyata keçirilən bütün layihələr bir məqsədə ünvanlanıb: şərurluların yaşayış şəraitini daha da yaxşılaşdırmaq, insanların yüksək səviyyədə yaşamasına nail olmaq. Rayon sakinləri də bu həqiqəti dərindən dərk edir, bölgənin, muxtar respublikanın və nəticə etibarilə ölkəmizin sosial-iqtisadi inkişafına öz töhfələrini verməyə çalışırlar.

### İlk 6 ay torpaq mülkiyyətçiləri üçün də uğurla başa çatıb

Bəhs olunan dövrdə Şərurun zəhmət adamları əkinçiliyin müxtəlif sahələrində, meyvəçilik və üzümçülükdə, heyvandarlıqda yüksək göstəricilərə nail olublar. Bölgənin torpaq və iqlim şəraitinin taxılçılıq üçün çox əlverişli olması, bu sahənin inkişafına göstərilən hərtərəfli dövlət qayğısı, taxılçılıqda qazanılan zəngin təcrübə, rayonda taxıl emalı müəssisələrinin, çörəkbişirmə sexlərinin şəbəkəsinin genişləndirilməsi əldə olunan nailiyyətlərin təməlində duran başlıca amillərdir.

Şərur rayonunda 2019-cu ilin məhsulu üçün 17115 hektar sahədə əkin aparılıb. Əkin sahəsinin 4647 hektarını dənli və dənli-paxlalı bitkilər (qarğıdalısız), 717 hektarını dən üçün qarğıdalı, 34 hektarını dən üçün günəbaxan, 2,5 hektarını tütün, 2010 hektarını tərəvəz bitkiləri, 482 hektarını ərzaq üçün bostan bitkiləri, 1094 hektarını kartof, 36 hektarını birillik otlar, 6451 hektarını cari ildə əkilmiş çoxillik otlar, 1641,5 hektarını əvvəlki illərdə əkilmiş çoxillik otlar təşkil edir.

1 iyul tarixə 4647 hektar dənli və dənli-paxlalı bitkilərin əkini sahəsinin 6,9 faizindən 1016 ton məhsul yığılıb. Məhsuldarlıq orta hesabla 31,8 sentner olub. İkinci çörək sayılan kartof mətbəximizdə özünəməxsus yer tutur. Şərurluların bu məhsulun əkilib-becərilməsində zəngin təcrübəsi var. 1094 hektar sahənin 19,7 faizindən 3450 ton kartof tədarük edilib. Məhsuldarlıq orta hesabla 160,5 sentnerə çatdırılıb.

Süfrələrimizin bəzəyi olan tərəvəzçiliyə də maraq ildən-ilə artır və qeyd edək ki, Şərur torpaqları belə əkinlər üçün çox münbitdir. Bunu nəzərə alan kənd adamları cari ildə 2010 hektar sahədə tərəvəz əkiblər. Əkin sahəsinin 47,8 faizindən 12080 ton tərəvəz məhsulları yığılıb. Məhsuldarlıq orta hesabla 25,8 sentner olub.

Şərur həm də dadlı-tamlı meyvələr yetişdirilən bölgəmizdir. Torpaq mülkiyyətçiləri ilbeil bağ sahələrini genişləndirir, yeni bağlar salınarkən yerli sortlara üstünlük verilirlər. Onların builki zəhməti də hədər getməyib, barverən meyvə bağlarından 9310 ton məhsul tədarük edilib.

2019-cu ilin yanvar-iyun aylarında Şərur rayonunda diri çəkidə 3879,9 ton ət, 16852 ton süd, 11848 min ədəd yumurta, 155,6 ton yun istehsal edilib. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 2,4 faiz, süd istehsalı 2 faiz, yumurta istehsalı 1,4 faiz, yun istehsalı 1,8 faiz artıb.

Balıqçılıqla məşğul olan müəssisələr tərəfindən ötən dövrdə 60 min manat (2018-ci ilin yanvar-iyun aylarında 58 min manat) dəyərində balıq satılıb.

Şərur rayonunun kənd və balıqçılıq təsərrüfatlarında 51649,1 min manatlıq məhsul istehsal edilib, bu da 2018-ci ilin yanvar-iyun ayları ilə müqayisədə 3,2 faiz çoxdur.

Qazanılan uğurlarda həyata keçirilən digər tədbirlərlə yanaşı, meliorativ tədbirlər də mühüm rol oynayıb. Rayonun kəndlərində 156 hektar torpaq sahəsində qrunt sularının səviyyəsi aşağı endirilib, torpaqlar əkin dövriyyəsinə qatılıb. Su nasos stansiyalarında və hidrotexniki qurğularda əsaslı və cari təmir işləri aparılıb.156 subartezian nasosu təmir olunaraq yenidən istifadəyə verilib. Ayrı-ayrı kəndlərdə 37,2 kilometr məsafədə beton-torpaq kanal, 26 kilometr məsafədə ara arxlar, 13,8 kilometr məsafədə kollektor təmizlənib. Arpaçay selovunda selə qarşı istiqamətləndirici bənd vurulub. Danyeri kəndində yeni nasos stansiyası tikilib və digər məqsədyönlü tədbirlər həyata keçirilib. Bu istiqamətdə işlər davam etdirilir.

Son illər rayonda həyata keçirilən meliorasiya tədbirləri torpaqlardan daha səmərəli istifadə etməyə imkan verib, hektarlarla sahə əkin dövriyyəsinə qatılıb. Suvarma suyuna olan tələbatın ödənilməsi istiqamətində görülən işlər ekoloji tarazlığın qorunmasında mühüm rol oynayan yaşıllıq sahələrinin artırılmasına imkan verib. Belə ki, bəhs olunan dövrdə 2,8 hektar sahədə yeni bağ salınıb, 15 hektar bağda bərpa işləri aparılıb. 5550 meyvə, 3680 meşə ağacı, 38 min gül kolu, 200 dekorativ ağac olmaqla, ümumilikdə, 47 min 430 ting və gül kolu əkilib.

### Xidmət sahələrinin fəaliyyətindən razılıq edilir

Bəhs olunan dövr ərzində Şərur rayonunda avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən fiziki şəxslər tərəfindən 967,3 min ton yük, 6117,6 min sərnişin daşınıb.Yük və sərnişin daşınmasından, bütövlükdə, 2623,2 min manat gəlir əldə edilib.

Bu müddətdə rayon üzrə 92 yeni elektrik dirəyi basdırılıb, 3 yeni transformator quraşdırılıb, 54 transformatorda təmir işləri aparılıb, 1,4 kilometr uzunluğunda yeni hava xətti çəkilib. Bu dövrdə 28 elektrik sayğacı quraşdırılıb. Şərur şəhərində smartkarttipli elektrik sayğaclarının quraşdırılmasına başlanılıb.

Rayon Rabitə İdarəsi 2 mərkəzi olmaqla, 45 kənd avtomat stansiyasını əhatə edir. Burada ilin ilk 6 ayı ərzində 183 abonentə telefon çəkilişi aparılıb. Bununla da abonentlərin sayı 12 min 775-ə çatıb. Rayon üzrə informasiya və rabitə xidmətlərinin dəyəri 3668,8 min manat olub.

### Təhsil, mədəniyyət, səhiyyə işçiləri fəaliyyətlərini günün tələbləri səviyyəsində qurublar

Başa çatan tədris ilində rayonda 2 ümumi orta, 54 tam orta olmaqla, 56 ümumtəhsil müəssisəsi və 5 məktəbdənkənar müəssisə fəaliyyət göstərib. Məktəblərdə 1309 kompüter quraşdırılıb. Onların 902-si internetə qoşulub. Təhsil ocaqlarında 150 elektron lövhədən istifadə edilir.

2018-2019-cu tədris ilində rayonun tam orta məktəblərindən 531 məzun olub. Onlardan 435-i ali məktəblərə sənəd verib, 283-ü keçid balını toplayıb. Ali məktəblərə qəbul imtahanlarında 39 abituriyent 500-700 intervalında bal toplayaraq daha yüksək nəticəyə nail olub.

Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyi 27 məzun bitirib və qəbul göstəricisinə 100 faiz nail olunub. Artıq üçüncü ildir ki, liseyin məzunları muxtar respublika üzrə rekord nəticə əldə edir.



Muxtar respublikamızda insanların sağlamlığı ciddi önəm verilən sahələrdən biridir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin bu ilin yanvar ayında imzaladığı "Şərur rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı tədbirlər haqqında" Sərəncama uyğun olaraq iyun ayının 1-dən rayon ərazisində icbari tibbi sığortanın tətbiqinə başlanılması da bu qayğının ifadəsidir.

Rayonun mədəni həyatı da göstərilən qayğıdan kənarda qalmayıb. Şərur Rayon Mədəniyyət Şöbəsinin tabeliyində 1 Mədəniyyət Sarayı, 25 kənd mədəniyyət evi, 1 şəhər, 34 kənd klubu, 1 şəhər incəsənət məktəbi, 5 kənd musiqi məktəbi, 1 rayon Tarix-Diyarşünaslıq Muzeyi, Cəlil Məmmədquluzadənin Xatirə Muzeyi, 1 muzeytipli türbə, "Şərur" xalq yallı ansamblı, "Şərur qönçələri"uşaq yallı kollektivi, Rza Təhmasib adına Şərur Rayon Xalq Teatrı, "Arpaçay" instrumental ansamblı, "Bahar" kinoteatrı fəaliyyət göstərir.

İlin 6 ayı ərzində bir çox konsert proqramları, sərgilər, oxunması zəruri olan kitabların müzakirəsi keçirilib. "Şərur" xalq yallı ansamblı 2019-cu ilin may ayında Ukraynanın Kiyev şəhərində Azərbaycan Respublikası diplomatiyasının 100 illiyi, Naxçıvan Muxtar Respublikasının 95 illiyi və 28 May – Respublika Günü, iyun ayında Türkiyə Respublikasının Ərzurum şəhərində Azərbaycan Respublikası diplomatiyasının 100 illiyi, Naxçıvan Muxtar Respublikasının 95 illiyi, 15 İyun – Milli Qurtuluş Günü və 26 İyun – Silahlı Qüvvələr Günü münasibətilə keçirilən tədbirlərdə iştirak edib. Şərur Rayon Xalq Teatrı 2019-cu il iyun ayında Bakıda keçirilən III Respublika Xalq Teatrlarının Festivalında iştirak edərək II yerə layiq görülüb.

### Əhalinin məşğulluğu təmin edilir, sosial müdafiəsi gücləndirilir, yaşayış səviyyəsi yüksəlir

Onu da qeyd etməyə dəyər ki, son illərdə muxtar respublikada müxtəlif istiqamətlərdə həyata keçirilən tədbirlərin bir qolunu əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi, insanların sosial müdafiəsinin gücləndirilməsi, onların məşğulluğunun təmin olunması təşkil edir. Davamlı xarakter alan belə tədbirlər əhali tərəfindən razılıqla qarşılanır. Cari ilin ilk 6 ayında Şərur rayonunda da reallaşdırılan bir sıra tədbirlər bölgə sakinlərinin rifah halını xeyli yüksəldib.

"Ünvanlı dövlət sosial yardımı haqqında" Azərbaycan Respublikası Qanununun icrasının nəticəsi kimi ilin 6 ayı ərzində rayon üzrə 33 ailənin 164 üzvünə ünvanlı dövlət sosial yardımı təyin olunub. Hazırda mərkəzdən, ümumilikdə, 143 ailənin 437 üzvü belə qayğıdan istifadə edir.

Bu dövr ərzində ünvanlı dövlət sosial yardımı almaq üçün müraciət edən ailələrdən əməkqabiliyyətli ailə üzvlərinin 16 nəfəri münasib işlə təmin olunub.

Şəhid ailələri üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqındakı fərmana uyğun olaraq mərkəz tərəfindən həmin kateqoriyadan olan 51 ailəyə Prezident təqaüdünün təyinatı aparılıb və ödənişi həyata keçirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı"nın icrası ilə bağlı rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzinin Sosial xidmət sektoru tərəfindən də müəyyən işlər görülüb. Altı ay ərzində növbə əsasında 8 nəfərə sanatoriyalara getməsi üçün göndəriş verilib.

### Şərurlular ili yüksək əhval-ruhiyyə ilə başa vuracaqlar

*Cari ilin ikinci yarım ilindəyik. 6 aylıq qısa zaman kəsiyində əldə olunan uğurlar sevindiricidir. Bunu həmsöhbət olduğumuz insanların çöhrələrindən, söhbətlərindən hiss etmək çətin deyildi. Tikinti-quruculuq işləri davam etdirilir, emal və sənaye müəssisələri yeni uğurlar qazanmaq əzmi ilə çalışır, insanlar rayonun daha da çiçəklənməsi, iqtisadi cəhətdən güclənməsi üçün səy və bacarıqlarını əsirgəmirlər. Birinci yarım ildə qazanılanları son hədd hesab etməyən rayon sakinləri ili yüksək göstəricilərlə başa vuracaqlarına inanırlar. Çünki arxalarında güclü dövlətin durduğunu görürlər. Belə dövlətin vətəndaşları olmaqla qürur duyurlar. Bilirlər ki, nail olunan hər bir uğurun təməlində insana, onun layiq olduğu səviyyədə yaşamasına qayğı dayanıb. Bu qayğı getdikcə artır, insanların həyat tərzi daha da yaxşılaşır.*

**Muxtar MƏMMƏDOV**

*1 avqust Azərbaycan Əlifbası və Azərbaycan Dili Günüdür*

# Dilimiz milli sərvətimizdir




*Ümummilli liderimiz Heydər Əliyevin 2001-ci il 9 avqust tarixli Fərmanı ilə hər il avqustun 1-i ölkəmizdə Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd olunur.*

Dil xalqın tarixini özündə yaşadan bir vasitə olmaqla, həm də hər bir xalqı, milləti başqalarından fərqləndirən ən başlıca amildir. Azərbaycan dili də özünəməxsus zənginliyi ilə başqa dillərdən seçilir. Xalqımız əsrlərboyu Ana dilimizin saflığını qoruyaraq bu dildə zəngin ədəbi nümunələr yaratmışdır. Şah İsmayıl Xətai, Məhəmməd Füzuli, Molla Pənah Vaqif, Mirzə Fətəli Axundzadə, Cəlil Məmmədquluzadə, Məmməd Səid Ordubadi, Üzeyir Hacıbəyov, Mirzə Ələkbər Sabir, Məmməd Araz və başqa görkəmli söz ustaları bu dilin zənginliklərindən istifadə edərək ölməz sənət nümunələri miras qoyub getmişlər.

Dilin müstəqil inkişafı və nüfuzu bilavasitə dövlətçiliklə bağlı olduğu üçün dil dövlətçiliyin əsas aparıcı atributlarından biri hesab olunur. Təsadüfi deyil ki, xalqımızın qədim dövlətçilik ənənələrini yaşadan Azərbaycan Xalq Cümhuriyyəti 1918-ci ildə qurulandan sonra dil məsələsi gündəmə gəldi və hökumətin imzaladığı ilk sənədlə Azərbaycan dili dövlət dili elan olundu. Ümumilikdə, dilimizin saflığı və yaşaması uğrunda mübarizə XIX əsrin əvvəllərindən XX əsrin ortalarına qədər davam etsə də, onun dövlət dili səviyyəsinə qaldırılması, qorunması və inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. ***“Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir”***, – deyən ulu öndər ötən əsrin 70-ci illərindən başlayaraq Azərbaycan dilinin hərtərəfli inkişafına, onun rəsmi dövlət dili statusuna malik olmasına, beynəlxalq münasibətlər sistemində yol tapmasına, zənginləşməsinə və nüfuz qazanmasına böyük qayğı göstərmişdir. Dahi rəhbər Azərbaycan dilini milli varlığın əsası kimi həmişə diqqət mərkəzində saxlamış, 1978-ci ildə Azərbaycan dilini Azərbaycan SSR Konstitusiyasında dövlət dili kimi xüsusi maddədə göstərilməsinə nail olmuşdur. Həmin dövrdə Azərbaycan dilinin qrammatik quruluşunun elmi şəkildə öyrənilməsinə başlanılmış, dilçi alimlərin fəaliyyəti üçün geniş imkanlar açılmış, elmi-tədqiqat materialları və kitablar nəşr olunmuşdur. Azərbaycan dilçilərinin əməyinə verilən qiymət və onlara göstərilən qayğı ölkəmizin keçmiş sovet məkanında, eyni zamanda beynəlxalq elm aləmində türkologiyanın mərkəzlərindən biri kimi tanınmasına gətirib çıxarmışdır. Təsadüfi deyil ki, ötən əsrdə SSRİ Elmlər Akademiyasının bu istiqamətdə yeganə “Türkologiya” jurnalı məhz Bakıda nəşr edilirdi.

Görkəmli dövlət xadimi Heydər Əliyevin ***“Azərbaycan dilinin dövlət dili kimi yaşaması, möhkəmlənməsi və inkişaf etməsi bizim nailiyyətlərimizdən biridir. Bu təkcə dil məsələsi deyil, həm də Azərbaycançılıq məsələsidir”*** fikri dahi şəxsiyyətin siyasi hakimiyyətə ikinci qayıdışından sonra bir daha öz təsdiqini tapdı. Azərbaycan Respublikası Konstitusiyasının 21-ci maddəsində Azərbaycan dili dövlət dili kimi təsbit olundu. Ulu öndərin “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” 2001-ci il 18 iyun tarixli Fərmanı, eləcə də 2003-cü il 2 yanvar tarixli Fərmanı ilə qəbul olunmuş “Azərbaycan Respublikasında Dövlət dili haqqında” Azərbaycan Respublikasının Qanunu mühüm dövlət sənədləridir. Belə ki, ulu öndərin “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” Fərmanı ilə ölkəmizdə kiril əlifbasından istifadəyə son qoyulmuş, latın qrafikasının tətbiqi ilə bağlı bir sıra işlər həyata keçirilmişdir. Bu tarixi sənədlər Azərbaycanda dilçilik elminin nəzəriyyə və praktikasının təkmilləşməsinə, ana dilimizin ümumxalq dili kimi inkişaf etməsinə stimul olmuşdur.

Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş dövlət dil siyasəti bu gün ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan Respublikası Prezidentinin Azərbaycan dilinə həssaslıqla yanaşmasının nəticəsidir ki, dövlət başçısının 2004-cü il yanvarın 12-də imzaladığı “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” Sərəncam milli əlifbamızla bağlı problemləri tamamilə həll etdi. Dövlət rəhbərinin müxtəlif sərəncamlarına əsasən çap olunan 150 cildlik “Dünya ədəbiyyatı kitabxanası”, 100 cildlik “Dünya uşaq ədəbiyyatı kitabxanası”, 100 cildlik “Azərbaycan ədəbiyyatı kitabxanası” seriyasından olan yeni nəşrlər respublika kitabxana şəbəkəsinin latın qrafikalı ədəbiyyat fondunu zənginləşdirdi. Müvafiq sərəncamlar əsasında 150 cildlik “Dünya ədəbiyyatı kitabxanası”, 100 cildlik “Dünya uşaq ədəbiyyatı kitabxanası”, 100 cildlik “Azərbaycan ədəbiyyatı kitabxanası” seriyasından işıq üzü görən yeni nəşrlər isə ölkəmizdə kitabxana şəbəkəsinin latın qrafikalı ədəbiyyat fondunu zənginləşdirməklə yanaşı, həm də doğma dilimizin gənc nəslə təbliği baxımından geniş imkanlar açdı.

Dilçilik daim inkişaf edən, zənginləşən sahə olduğundan ölkə başçısının 2013-cü il 9 aprel tarixli “Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramının təsdiq edilməsi haqqında” Sərəncamı milli terminologiyamızın inkişafına, internet resurslarının, elektron və interaktiv dərsliklərin yaradılması məsələlərinə öz töhfəsini vermişdir. Dövlət başçısının “Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında” 2018-ci il 17 iyul tarixli Sərəncamı isə Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsini nəzərdə tutur. Ümumilikdə, Azərbaycan dilinin inkişafına göstərilən dövlət qayğısının nəticəsidir ki, ötən dövrdə dilimizin işləkliyi və düzgün təbliği diqqət mərkəzində saxlanılmış, televiziya və radiolarda Azərbaycan dilinin norma və qaydalarının qorunması məqsədilə bədii şuralar yaradılmışdır.

Ümummilli liderimiz Heydər Əliyevin ***“İnkişaf etmiş zəngin dil mədəniyyətinə malik olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımızın ulu babalardan miras qalan bu ən qiymətli milli sərvətini hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir”*** fikirləri bu gün muxtar respublikamızda da özünün gerçək təsdiqini tapıb. Son illər muxtar respublikada nəşr olunmuş “Naxçıvan Ensiklopediyası”, “Naxçıvan Abidələri Ensiklopediyası”, 3 cilddə “Naxçıvan folkloru antologiyası”, 3 cildlik “Naxçıvan tarixi” kitabı, xeyli sayda digər nəşrlər tariximiz və mədəniyyətimizlə yanaşı, dilimizin də qorunub saxlanılması sahəsində əsaslı tədbirlərdəndir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Oxunması zəruri olan kitablar haqqında” 2017-ci il 28 avqust tarixli Sərəncamı gənclərdə mütaliə mədəniyyətini formalaşdırmaqla yanaşı, onlarda ana dilinə sevgi və hörmət hisslərini də artırıb. Bu gün muxtar respublikada ticarət və iaşə obyektlərinə, coğrafi ünvanlara doğma dilimizdə adların verilməsi, reklam lövhələrinin dilimizin qayda-qanunlarına uyğun yazılması ana dilimizin qorunması sahəsində həyata keçirilən tədbirlərdəndir. Naxçıvan şəhərində ucaldılmış “Ana dili” abidəsi isə əsrlərdən bəri süzülüb gələn dilimizə xalq sevgisinin gerçək ifadəsidir.

*Bu gün hər birimiz minillərboyu Qobustandan, Gəmiqayadan üzü bu yana çətin və şərəfli yol keçərək bugünkü səviyyəyə gəlib çatan dilimizin saflığının qorunmasında əsl vətəndaş mövqeyi sərgiləməli, harada olmağımızdan asılı olmayaraq dilimizi unutmamalıyıq. Ölkə Prezidentinin də dediyi kimi:* ***“Bizi millət kimi qoruyub saxlayan məhz dilimiz, ədəbiyyatımız, tariximiz, ənənələrimizdir”.***

**“Şərq qapısı”**

***24-26 iyul tarixlərində İspaniya vətəndaşı, arxeoloq Rodriguez Oscar Naxçıvan Muxtar Respublikasında səfərdə olmuşdur. Ölkəsinə qayıtdıqdan sonra o, “Tripadvisor” sosial şəbəkəsində Naxçıvan Muxtar Respublikası barədə aşağıdakı məlumatı paylaşmışdır.***

# Qafqazın gizli qalan cənnəti



**Hidden paradise in the Caucausus**

Review of **Nakhchivan Travel**

Reviewed today

oscarrodmon

1

Nachijevan is a wonderful hidden corner of thw Caucasus where there is a mixture between the Turkish and Slavic cultures which can be tasted in everything, food, good mood of the local population, buildings and landscapes. Incredible stay and visits to Islamic monuments wonderfully decorated in tiles and bricks. Unforgettable visit to Alinja Castle, one of the most outstanding monuments I have ever visited, as an expert archeologist and historian I can say that this is the most impressive and breathtaking monument I saw in Azerbayjan dated back between the 1st and the 4th centuries. Am incredible landscape of mountains and hills, rock formations and the fertile green valley of the river Azar. Highly recommendable when visiting Azerbayjan to spend two or three days there and/or even visited as a sole destination from Istanbul, Moscow, or Baku. More

**Date of experience:** July 2019

See all 22 reviews

Naxçıvan Qafqazın gözəl, gizli bir guşəsidir. Bura səfər etsəniz, türk və islam mədəniyyətlərini özündə birləşdirən abidələr, zəngin mətbəx, qonaqpərvər insanlar və əsrarəngiz təbiət mənzərələri ilə rastlaşa bilərsiniz. Kaşı və kərpiclə bəzədilmiş türk-islam mədəniyyəti abidələri ilə tanışlığımız inanılmaz dərəcədə gözəl keçdi. Bir arxeoloq və tarixçi olaraq deyə bilərəm ki, I-IV əsrə aid olan məşhur Əlincəqalaya səfərim çox yaddaqalan oldu. Ərazidəki dağların, təpələrin, qaya birləşmələrinin və Araz çayının yaşıl vadisinin inanılmaz mənzərəsi insanı valeh edir. Azərbaycana səfər edərkən iki və ya üç gün Naxçıvanda qalmağınızı tövsiyə edirəm. Xatırladım ki, Bakı ilə yanaşı, İstanbul və Moskvadan da Naxçıvana səfər etmək mümkündür.

# Bir udum suyun sorağı ilə...



Yazının sərlövhəsi sizdə su haqqında danışacağım qənaətini yaratsa da, bu, belə deyil. Burada bir udum suyun – “Sirab”ın sorağı ilə Naxçıvana yol alan gənc amerikalının qədim tarixi diyar haqqında təəssüratlarından söhbət açacağam.

Gənc ingilis dili müəllimi Mattehev Patyyla Naxçıvan Turizm Mərkəzində həmsöhbət oluruq. Onun dedikləri maraqlıdır: – Bakıda qonaq idim. Qədim paytaxtınızı gəzib dolaşanda restoranlardan birində su içdim və suyun harada istehsal olunduğu ilə maraqlandım. Öyrəndim ki, bu su Naxçıvan Muxtar Respublikasına məxsusdur. Onu da dedilər ki, təbii və mineral suyu olan bulaqlarına görə Naxçıvan dünyada diqqəti cəlb edən bir diyardır. Elə bu səbəbdən də buranı mineral suların təbii muzeyi adlandırırlar. Ərazisində 250-dən artıq mineral su mənbəyi var.

Mən tarixi yerləri çox sevirəm. Ona görə də belə gözəl diyarlara tez-tez səyahətə çıxıram. Bulaqlar, müalicəvi sular, yeraltı sərvətlər, gözəl dağlar, möcüzəvi yerlər, qədim abidələr – nə yoxdur, Naxçıvanda? Buraya gəlişimdə məqsədim həm də qədim diyarın tarixi abidələri ilə tanış olmaq idi. İlk olaraq Nuhun məzarüstü türbəsini, Naxçıvanqalanı, Duzdağdakı mağaraları, Əshabi-Kəhfi, Atabəy Şəmsəddin Eldənizin xanımı Möminə xatının vəfatından sonra onun şərəfinə ucaldılan türbəsini ziyarət etdim. Bu gün türbə Azərbaycan qadınına verilən yüksək dəyərin simvolu kimi Naxçıvan torpağında öz əzəməti ilə diqqəti cəlb edir. Möminə xatın türbəsini ziyarət edəndə öyrəndim ki, həmin abidə tək deyil. Quti xatının şərəfinə ucaldılan Qarabağlar Türbə Kompleksi də var. Mən oranın da seyrinə çıxdım. Əsrlər öncə ucaldılan bu abidənin gözəlliyi insanı valeh edir. Buranı Hindistanda yerləşən Tac-Mahala bənzətdim. Onlar arasındakı xüsusi bənzərlik ondan ibarətdir ki, hər üç abidə həyat yoldaşlarına böyük sevgi və ehtiram bəsləyən tarixi şəxsiyyətlər tərəfindən inşa etdirilib. Naxçıvandakı hər iki məqbərə bu xalqa, qadınını və anasını belə yüksək qiymətləndirən azərbaycanlılara hörmət hissini artırır. Diqqətçəkən məqamlardan biri də yüz illər öncə tikilən bu abidələrin yüksək səviyyədə qorunub saxlanılmasıdır. Tarixə dəyər verənlər dövrünün qurucu şəxsiyyətləri kimi adlarını tarixə yazaraq yaşayırlar.

Naxçıvan şəhərini gəzdikcə, onun təmiz, səliqəli küçə və prospektlərini seyr etdikcə düşünürəm ki, burada Vətəninin hər qarışını sevən gözəl insanlar yaşayır. Keçmişi zənginliklərlə dolu olan xalqınızın ürəyi tarixindən də zəngindir. Təbiət gözəlliklərini tamamlayan da elə insanın özüdür. Bu fikirlər məndə əbəs yerə əmələ gəlməyib. Dünyanın bir çox ölkələrində turistlər o qədər də rahat gəzib dolaşa bilmirlər. Dar küçə və döngələrdə pusquda duran fürsətçilər, acgöz taksi sürücüləri məqam gözləyirlər ki, gələn turistdən artıq pul qoparsınlar. Hava limanlarından çölə çıxanda sənin başqa ölkə vətəndaşı olduğunu bilib tələm-tələsik taksisinə mindirməyə çalışanlar da az olmur. Amma bu kiçik məmləkətdə hər şey daha fərqlidir. Gözəl, gözoxşayan hava limanında təyyarədən enər-enməz gülərüzlə qarşılanır bütün qonaqlar. Taksi sürücüləri səliqəli geyimdə öz müştərilərinin yolunu gözləyirlər. Axşam saatları idi buraya gələndə. Hava limanından çıxıb taksiyə əyləşdim. Haraya gedəcəyimi soruşanda şəhərdəki otellərdən birinə düşmək istədiyimi bildirdim. Yola düşdük.

Mənzil başına çatıb taksinin yol haqqını verib otelə daxil oldum. Qeydiyyatdan keçmək üçün pasportumu axtaranda gördüm ki, yoxdur, çantamı taksidə unutmuşam. Bu hal məni çox məyus etdi. Nə edəcəyimi bilmədim. Otel işçiləri vəziyyəti görüb kömək etmək istəyəndə mən polisə xəbər vermələrini xahiş etmək istəyirdim ki, həmin taksi sürücüsü əlində çantam otelin qapısında göründü. O, çantamı maşında unutduğumu görüb geri qayıtmışdı.

Səhəri gün şəhəri gəzəndə sakit bir diyara sahib olduğunuza şahidlik etdim. Dünyanın 20-dən çox ölkəsində olmuşam. Sizə onu deyim ki, gəzdiyim yerlərin əksəriyyətində olan evlərin pəncərələrində dəmir barmaqlıqlar görmüşəm. Burada isə vəziyyət tamam başqadır. Böyük, yaraşıqlı villaların belə, heç birində dəmir barmaqlıq gözə dəymir.

Yollardakı səliqə-sahmanla bərabər, nizam-intizam da yüksək səviyyədədir. Burada avtobusları marşrut dayanacağından başqa yerdə saxlamaq olmaz. İşıqforda qırmızı işıq yandısa, heç bir maşın qaydanı pozub keçmir. Kimliyindən asılı olmayaraq, hamı bu qaydaya əməl edir.

Şəhər gecələri daha da gözəlləşir və insana gəl-gəl deyir. Qaldığım oteldən görünən “Saat meydanı” adlı yer qədim tarixi karvansarayı xatırladır. Etiraf edim ki, bura həm də müasirliyi ilə göz oxşayır. Həmin yerdə dünya mətbəxinin bir çox nümunələrinə rast gəldim. Amma mən Naxçıvan plovu, basdırması, xəngəli yedim, “Sirab”dan, “Badamlı”dan doyunca içdim.

Sabah axşam yola düşəcəyini bildirən Mattehev bu səhər bazara – “Cahan” Ticarət Mərkəzinə getdiyini deyir və bildirir ki, mağazalardan nə isə almaq istəyirdim, hamı ürəkdən təklif edirdi ki, buyurun qonağımız olun. Dünyanın heç yerində belə münasibət görməzsən. İnanın, mən heç bir ölkədə bu cür istiqanlı insanlara rast gəlməmişəm. Bazardan duz, “Sirab”, bir də yerli istehsalımız olan meyvə araqlarından aldım. Bunları dostlarıma hədiyyə etməyi düşünürəm. Mən buranı çox sevdim. Sizin milli bayramınız Novruzda gəlib Naxçıvanda daha çox qalmağı planlaşdırıram.

*Bəzən biz yurdumuzun gözəlliyini görmədən, kəşf etmədən gözəllik ardınca uzaq ölkələrə gedirik. Amma yaşadığımız yer ilə heç bir bağlılığı olmayan qonaqların dilindən elimiz-obamız, insanlarımız haqqında belə gözəl sözlər eşidəndə əmin oluruq ki, elə əsl cənnətin adı Naxçıvandır.*

**Ramiyyə ƏKBƏROVA**

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti ilə birlikdə xidmətdə vakant olan vəzifələrin tutulması üçün müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər 1-30 avqust 2019-cu il tarixlərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın internet portalında *(www.dqmk.nmr.az)* "şəxsi kabinet" bölməsinə daxil olaraq elektron müraciət formasını doldurmaqla qeydiyyatdan keçməlidirlər.

Namizədlər elektron ərizəni təsdiq etmək üçün 70 manat məbləği "şəxsi kabinet" vasitəsilə bank kartları ilə ödəyə bilərlər. Digər halda həmin məbləğ komissiyanın "Naxçıvanbank" ASC-dəki bank hesabına (AZ50NAXB36015000024840000AZN) ödənməli və ödənişə dair qəbz həftənin iş günləri saat $9^{00}$-dan $12^{30}$-dək və $14^{00}$-dan $17^{30}$-dək komissiyaya təqdim edilməlidir.

Müsabiqədə fiziki cəhətdən sağlam, yaşayış yeri üzrə Naxçıvan Muxtar Respublikasında qeydiyyatda olan Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər. Zabit vəzifələrinin tutulması üçün "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq ilk zabit hərbi rütbəsi almış 35 yaşınadək həqiqi hərbi xidmət keçmiş şəxslər, mülki vəzifələrin tutulması üçün 35 yaşınadək alitəhsilli şəxslər müraciət edə bilərlər.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, əvvəllər az ağır, ağır və ya xüsusilə ağır cinayət törətdiyinə görə məhkum olunmuş şəxslər, məhkumluğu ödənilməmiş və ya götürülməmiş şəxslər, tibbi rəyə əsasən fiziki və əqli qüsurlarına görə xidmətdə işləməyə qadir olmayan, digər hüquq-mühafizə və ya başqa dövlət orqanlarında əvvəllər yol verdiyi kobud nöqsanlara görə həmin orqanlardan xaric edilmiş şəxslər xidmətə qulluğa qəbul edilə bilməzlər.

Namizəd bir neçə vakant vəzifənin tutulması üçün müraciət edə bilər.

Namizədlər elektron müraciət formasını doldurarkən iddia etdikləri vakant vəzifələrin tutulma şərtlərini nəzərə almalıdırlar.

Qeydiyyatdan keçməkdə çətinlik çəkən namizədlər komissiyaya gəlməklə müraciət edə bilərlər.

***Maraqlananlar komissiyanın (036) 545-65-71 nömrəli əlaqə telefonu və ya dqmk@nakhchivan.az elektron poçt ünvanı vasitəsilə ətraflı məlumat əldə edə bilərlər.***

| Vəzifə kodu | Vəzifə | Ştat sayı |
|---|---|---|
| | **1. Xidmətin aparatı üzrə** | |
| 320482 | Zabit | 3 |
| 320303 | Baş məsləhətçi | 1 |
| 320403 | Baş məsləhətçi – mətbuat və ictimaiyyətlə əlaqələr üzrə | 1 |
| 320005 | Aparıcı məsləhətçi | 1 |
| | **2. Naxçıvan Şəhər İdarəsi** | |
| 321012 | Zabit | 1 |
| 321029 | Müfəttiş | 1 |
| 321019 | Müfəttiş | 1 |
| | **3. Şərur Rayon İdarəsi** | |
| 322012 | Zabit | 1 |
| | **4. Babək Rayon İdarəsi** | |
| 323012 | Zabit | 1 |
| 323029 | Müfəttiş | 1 |
| | **5. Ordubad Rayon Şöbəsi** | |
| 324012 | Zabit | 1 |
| 324022 | Zabit | 1 |
| 324019 | Müfəttiş | 1 |
| | **6. Culfa Rayon Şöbəsi** | |
| 325012 | Zabit | 1 |
| 325022 | Zabit | 1 |
| 325019 | Müfəttiş | 1 |
| | **7. Kəngərli Rayon Şöbəsi** | |
| 326012 | Zabit | 1 |
| 326029 | Müfəttiş | 1 |
| 326039 | Müfəttiş | 1 |
| | **8. Şahbuz Rayon Şöbəsi** | |
| 327012 | Zabit | 1 |
| 327022 | Zabit | 1 |
| 327062 | Zabit | 1 |
| 327019 | Müfəttiş | 1 |
| 327059 | Müfəttiş | 1 |
| | **9. Sədərək Rayon Şöbəsi** | |
| 328012 | Zabit | 1 |
| 328062 | Zabit | 1 |
| 328092 | Zabit | 1 |
| 328019 | Müfəttiş | 1 |
| | **Cəmi:** | **30** |

## İnsan sağlamlığının keşiyində

*Həkimlik ən humanist peşələrdən biridir. Şübhəsiz, bu həyatda sağlam yaşamaq nə qədər xoşbəxtlikdirsə, insanları yenidən sağlamlığına qovuşdurmaq da o qədər gözəl hissdir. Bəlkə, buna görədir ki, bir həkim haqqında düşünəndə onu haradasa ağrılardan əziyyət çəkən bir xəstənin sağalmaq üçün Uca Yaradanın mükafatı kimi görürük. Şübhəsiz, indiyə qədər diş ağrısından kimsə dünyasını dəyişməsə də, bir gecə yarısı qəfil başlayan bu ağrıdan çəkilən əziyyət bir çoxlarına tanışdır. Odur ki, sağlamlıq, əslində, ağız boşluğundan başlayır, – deyəndə bu fikir, sadəcə, dişlərin qorunması və müalicəsi ilə bağlı deyildir. Belə ki, insan orqanizminin bir çox xəstəliklərinin məhz dişlə əlaqəli olduğu müasir tibb elminin gəldiyi qənaətlərdəndir. Buna görə də bu gün də olmasa, sabah diş və ağız boşluğu ilə bağlı problemlərlə hökmən rastlaşacağı üçün hər kəsin stomatoloqlara və onların dəyərli məsləhətlərinə ehtiyacı var.*



Rauf Cəfərov Naxçıvanın tanınmış stomatoloqlarındandır. O, Babək rayonunun Nehrəm kəndində ziyalı ailəsində doğulub. Hələ uşaq ikən onda həkim olmaq arzusu yaranıb. Bu da təsadüfi deyil. Nehrəm yaxın keçmişdə və bu gün də məşhur həkimləri ilə tanınır. Elə bu arzu ilə də 1984-cü ildə Nəriman Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun Stomatologiya fakültəsinə daxil olan Rauf Cəfərov 1991-ci ildə həmin fakültəni bitirib. Bundan sonra o, muxtar respublikadakı müxtəlif tibb müəssisələrində həkim-stomatoloq kimi fəaliyyət göstərib və 2005-ci ildən "İmplant-Dent-Naxçıvan" özəl stomatoloji klinikasının baş həkimidir.

Həkim-stomatoloqla onun işlədiyi klinikada görüşdük. Vaxtaşırı Rauf həkimə müraciət etdiyim üçün bu dəfə də onunla dərhal söhbətə başladıq. İlk olaraq həkimi Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli Sərəncamı ilə Azərbaycan səhiyyəsinin inkişafında xidmətlərinə və səmərəli fəaliyyətinə görə "Tərəqqi" medalı ilə təltif olunduğu üçün təbrik etdim. O, dövlətimizə dərin minnətdarlığını bildirdi, bu mükafatın onun işinə verilən yüksək qiymət olduğunu dilə gətirdi. Doğrudan da, bir həkim kimi o, insanların sağlamlığına xidmət etməklə özünü xoşbəxt sayır.

Rauf həkim işindən həvəslə danışır. Deyir ki, həkim gərək savadlı, məsuliyyətli, eyni zamanda humanist olsun. Axı insanlar onun köməyinə həmişə ehtiyac duyurlar. İnsan sağlamlığı isə ən dəyərli sərvətimizdir. Yaxşı həkim təkcə pasiyentin müalicəsi ilə məşğul olmayıb, cəmiyyətdə hörmət, insanlar arasında nüfuz da qazanmalıdır. Həkim özünün davranışı, həyat tərzi və gözəl əhval-ruhiyyəsi ilə təkcə xəstəlikdən əziyyət çəkənlərdə deyil, bütün insanlarda gələcəyə nikbinlik yaratmalıdır. Belə olduqda, sanki hamı hər yerdə gözəllik, sağlamlıq və xoşbəxtliklə qarşılaşacaq. Bu isə bütün insanlar kimi, həkimlərin də ən gözəl arzusudur. Çünki insanların müalicəsindən daha çox, xəstəliklərin profilaktikası dövlətimiz tərəfindən bütün səhiyyə işçiləri qarşısında ali məqsəd kimi qoyulub.

Kifayət qədər iş təcrübəsinə malik olan Rauf həkim əvvəlki illərlə müqayisədə tibb elmində, xüsusən də stomatologiya sahəsində yeni texnologiyaların tətbiqinin əhəmiyyətindən danışaraq muxtar respublikamızdakı müasir tibb ocaqlarının infrastrukturundan və burada tətbiq olunan yeni avadanlıqlardan da bəhs edir. Deyir ki, indi tibdə, ələlxüsus stomatologiya sahəsində elə müasir avadanlıq və müalicə texnologiyaları tətbiq olunur ki, onları nəinki 10 il, hətta ikiüç il əvvəlkilərlə müqayisə etmək çətindir. Müasir kompüter texnologiyası ilə ən həssas müayinələri tam dəqiqliklə həyata keçirmək mümkündür ki, bu da həkimlərin işini xeyli asanlaşdırır. İndi dişlərin müayinəsi və müalicəsi üçün müraciət edən pasiyentlərin də sayı artıb. İnsanlar daha çox profilaktika məqsədilə diş həkimlərinə müraciət edirlər ki, bu da stomatoloqlar üçün əlavə məsuliyyət deməkdir. Başqa sözlə, "Dişin ağrıyır, çək qurtar" ifadəsi artıq çoxdan dəbdən düşüb. Bu gün artıq insanlar maarifləni̇b, təbii dişin əvəzini heç nəyin vermədiyini yaxşı bilirlər.

Rauf həkim həm də araşdırmaçı stomatoloqdur. O, daim təhlillər aparıb, mövcud diş xəstəliklərinin müayinə və müalicəsindən gəldiyi elmi nəticələri də paylaşmağa vaxt tapıb. 2013-cü ildən Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin Əczaçılıq və stomatologiya kafedrasında baş müəllim işləyən Rauf Cəfərov 2015-ci ildə "Naxçıvan Muxtar Respublikasında əhali arasında əsas stomatoloji xəstəliklərin yayılması və stomatoloji xidmətin optimallaşdırılması" mövzusunda dissertasiya işini uğurla müdafiə edərək tibb üzrə fəlsəfə doktoru elmi dərəcəsi alıb. Türkiyə, Rusiya, Litva, Ukrayna, İsrail, Misir, İran və digər ölkələrdə beynəlxalq konfranslarda iştirak edib, ixtisaslaşma kurslarına qatılıb. O qazandığı bütün uğurlara görə dövlətimizə bir daha minnətdarlıq edərək muxtar respublikamızda səhiyyənin inkişafına göstərilən dövlət qayğısından fəxrlə danışdı.

Rauf Cəfərovun həkimliyə sevgisi ailəsində də görünür. Onun dörd övladından üçü artıq həkimlik peşəsini seçib. Ailənin sonbeşiyi, Heydər Əliyev adına tam orta məktəbin əlaçısı, balaca Ruqiyyə də təbiət elmlərinə yaman həvəslidir. Deyəsən, o da həkim olacaq. Gözəl arzudur!

Bəli, həkim olmaq, insanların cansağlığının keşiyində dayanmaq ən nəcib işdir. Həkimliyi özünə peşə seçib, bəzən heç yorulmaq bilmədən çalışmaq isə bu sənətə sevgidən və yeri gələndə fədakarlıqdan keçir. Ömrünün sonuna qədər öyrətməyi qarşısına məqsəd qoymuş müəllimlər kimi, həkimlər də son nəfəsinə qədər bir insanın həyatına şəfa vermək üçün çalışırlar.

Əli CABBAROV

*"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində "Əmək münasibətlərinin praktiki uçotu" adlı yeni dərs vəsaiti işıq üzü görüb.*

Yeni nəşrlər

## Maliyyə və mühasibatlıq sahəsində yeni kitab nəşr olunub

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 10 fevral tarixli Sərəncamı ilə yaradılmış Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzi muxtar respublikada maliyyə və mühasibatlıq sahəsində çalışan işçilərin peşə hazırlığının təkmilləşdirilməsi, ixtisaslarının artırılması, yenidən hazırlanması və bu sahədə digər zəruri tədbirlərin görülməsi işini həyata keçirir. Bu istiqamətdə aparılan işlərin davamı olaraq bu praktik dərs vəsaiti həmin mərkəzin təşəbbüsü ilə hazırlanmışdır.



Dərs vəsaitinin müəllifləri mərkəzin direktoru, iqtisad üzrə fəlsəfə doktoru Sevinc Cabbarova, Naxçıvan Dövlət Universitetinin Mühasibat uçotu və maliyyə kafedrasının dosenti Nuriyyə İbrahimova və iqtisadçı-ekspert Rauf Qarayev, rəyçiləri isə Naxçıvan Dövlət Universitetinin müəllimləri Teymur Abbasov, Əşrəf Ələkbərov və Ceyhun Mahmudovdur.

Naxçıvan Dövlət Universitetinin Elmi Şurasının iclasının müvafiq qərarı ilə çap edilən dərs vəsaitində Milli Mühasibat Uçotu və Maliyyə Hesabatlarının Beynəlxalq standartlarına uyğun olaraq əməkhaqqının, ezamiyyətin, kompensasiyanın, əmək kitabçasının, məzuniyyətin, ştat cədvəlinin, təhsilin, təzminatın, yardımın, əlilliyin, müqavilənin, pensiyanın, maddi məsuliyyətin, sınaq müddətinin, əmrin tərtibinin, işə bərpanın, işdən azadetmənin, işçinin qiymətləndirilməsinin, məşğulluğun, Vergi Məcəlləsində dəyişikliyin izahına geniş yer verilib. Bundan başqa, sosial sığorta haqqında qanunda dəyişiklik, kommersiya mühasibatlığında əməkhaqqının hesablanması, büdcə mühasibatlığında ezamiyyə, avans, əməkhaqqı, əmək pensiyasının təyin edilməsi, işsizlikdən sığorta haqqında qanunda olan dəyişikliklər tədqiq olunub və aktual suallara əsaslı və qanunvericiliyin tələblərinə uyğun cavablar verilib.

"Əmək münasibətlərinin praktiki uçotu" adlı dərs vəsaiti tələbələr, magistrlər, müəllimlər, müəssisələrdə çalışan mühasiblər, auditorlar, iqtisadçılar və mühasibatlığa maraq göstərən digər şəxslər üçün nəzərdə tutulub.

Xəbərlər şöbəsi

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 510